**“Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 348; 1999, 11, maddə 609; 2000, 11, maddə 776; 2001, 9, maddə 576, 12, maddələr 733, 736; 2002, 12, maddə 706; 2004, 7, maddə 505, 12, maddə 976; 2005, 1, maddə 2, 12, maddə 1082; 2006, 11, maddə 923, 12, maddə 1018; 2007, 1, maddə 4, 12, maddə 1193; 2008, 2, maddə 49, 4, maddə 254, 6, maddə 462, 7, maddə 602; 2009, 12, maddə 970; 2010, 4, maddə 276, 11, maddə 949; 2011, 10, maddə 883; 2013, 11, maddə 1284, 12, maddə 1487; 2014, 10, maddə 1171) 12-ci maddəsində “tərəflərdə işləyən” sözlərindən sonra “, habelə müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti, onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən (2016-cı il mayın 1-dən 5 il müddətində)” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 may 2016-cı il
224-VQD